# POLİTOLOGİYA

**UOT 321.7**

## SİYASƏTİN OPTİMALLIĞINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**X.S.İBRAHİMOVA**
***Xayala443@hotmail.com***

*Son onilliklərdə siyasətin optimallığı probleminə diqqətin artması praktiki və nəzəri tələbatdan irəli gəlir. Siyasətin optimallığından söhbət getdikdə, konkret situasiyada, yaxud müəyyən istiqamətdə həyata keçirilən siyasətin optimallığının meyarlarının müəyyən edilməsi və hər hansı real siyasətin bu mövqedən əsaslandırılması və qiymətləndirilməsi daha çox zəruridir.*

*Siyasətin optimallığı son dərəcə mürəkkəb və dinamik prosesdir. Onu şərtləndirən bir çox amillər vardır və onlar birlikdə kompleks halda cəmiyyətə təsir göstərir. Daha dəqiq desək, siyasətin optimallığı, onun cəmiyyətdə formalaşması və həyata keçirilməsi, ictimai durum, mövcud hakimiyyət, dövlət və onun aparatı arasındakı münasibətlərin xarakteri və məzmunu, əhalinin siyasi əhval-ruhiyyəsi, onun maraqları ilə müəyyən olunur, o həmçinin qeyri-ictimai amillərdən – xarici təbii,ekoloji amillərdən, xeyli dərəcədə asılı olur.*

**Açar sözlər**: Siyasət, siyasətin səmərəliliyi və optimallığı, dövlət, hakimiyyət, demokratiya, milli mentalitet

Müasir dövrdə siyasət cəmiyyətin, sosial qrupların və şəxsiyyətin əsas maraqlarını ifadə etməklə ictimai həyatın bütün sahələrinə yayılır. Hər bir insan siyasətə münasibətindən asılı olmayaraq, öz üzərində onun təsirini hiss edir. Bütün bunlar müasir dövrdə cəmiyyətdə total miqyasda baş verən siyasiləşmə meylinin təzahürüdür. Siyasətin tarixi təkamülünün izlənməsi onun fundamental əsaslarının dəyişməz olaraq qalmasını göstərir. Bu təsadüfi olmayıb onunla izah edilir ki, siyasət cəmiyyət həyatının təşkili və tənzimlənməsinin çox mühüm mexanizmi rolunu yerinə yetirir. Son dövrlərdə ölkə daxilində və beynəlxalq miqyasda baş verən əsaslı dəyişikliklər siyasətin mahiyyəti, məzmunu və həyata keçirilməsi metodlarında ciddi keyfiyyət yeniliklərini şərtləndirir. Sonuncuların sırasında siyasətin demokratikləşməsi və humanistləşməsi, onun cəmiyyətin əsas tələblərinə daha da yaxınlaşdırılması, bu vəzifənin tərəqqi və yeniləşmə məcrasında yerinə yetirilməsi və s. xüsusilə mühüm yer tutur. Siyasətlə bağlı vəzifələrin sayı və mürəkkəbliyi daim artmaqdadır. Deyilənlər sübut edir ki, siyasətin başlıca perspektivi onun mürəkkəbləşməsi, səmərəliliyi və məsuliyyətinin artmasından ibarətdir (7, 256).

Hər bir dövlət, siyasətin başlıca subyekti olmaqla onu öz maraqlarına uyğun, hərtərəfli və dolğun həyata keçirməyə cəhd göstərir. Beləliklə, siyasətin səmərəliliyi və optimallığı göstəriciləri dövlətin fəaliyyətinin başlıca meyarlarından birinə çevrilir. Optimallıq anlayışının ensiklopedik izahı, "səmərəli, səmərə verən, istənilən nəticələrə gətirən, təsirli mənasını verir". (2 c.323).

Analitik yanaşma nöqteyi-nəzərindən, əlbəttə, bu tərifdə dövlət siyasətinin optimallığını müəyyən edən meyarlar məcmusu yoxdur. O daha çox ümumi, necə deyərlər işçi miqyaslı tərifdir. Optimallığın elmi anlayış kimi mənalandırılması, ona abstrakt yanaşmaqla məhdudlaşmamalıdır, real konkret münasibətlərlə əlaqədə götürülməlidir, xüsusilə də, siyasətin optimallığından söhbət getdikdə, konkret situasiyada, yaxud müəyyən istiqamətdə həyata keçirilən siyasətin optimallığının meyarlarının müəyyən edilməsi və hər hansı real siyasətin bu mövqedən əsaslandırılması və qiymətləndirilməsi daha çox zəruridir.

V.Makarenkonun haqlı olaraq qeyd etdiyi kimi, son onilliklərdə siyasətin optimallığı probleminə diqqətin artması, praktiki və nəzəri tələbatdan irəli gəlir. İndi optimallıq ənənəvi insan istəkləri konsepsiyalarının yenidən dərk olunması ilə bağlı mənalandırılır. Ondan müxtəlif sosial və siyasi sistemlərdə seçimin reallaşması imkanlarının təsvir edilməsində, ümumilikdə siyasətin fəlsəfi təhlilində istifadə olunur. Optimallıq probleminin həll edilməsi üsulları da müxtəlifdir: birinci, optimallıq dedikdə, elə vəziyyət nəzərdə tutulur ki, onun yaxşılaşdırılmasına xüsusi ehtiyac olmur; ikinci üsul isə optimallığın hədlərinin əsas sosial, iqtisadi və siyasi oyunlar qaydaları və onların seçimi ilə məhdudlaşdırılmasını nəzərdə tutur (6, 378-379).

Siyasətin optimallığı son dərəcə mürəkkəb və dinamik prosesdir. Onu şərtləndirən bir çox amillər vardır və onlar birlikdə kompleks halda təsir göstərir. Daha dəqiq desək, siyasətin optimallığı onun cəmiyyətdə formalaşması və həyata keçirilməsinin obyektiv şərtləri ilə, ictimai durum, əhalinin əhval-ruhiyyəsi, onun maraqları ilə, mövcud hakimiyyət, dövlət və onun aparatı arasındakı münasibətlərin xarakteri və məzmunu müəyyən olunur, o həmçinin qeyri-ictimai amillərdən-təbii, xarici, siyasi, ekoloji amillərdən (təbii sərvətlərin olmasından təbii və ətraf mühitin vəziyyətindən) xeyli dərəcədə asılı olur.

Azərbaycan politoloqu V.Hacıyeva siyasətin optimallığını şərtləndirən amil kimi demokratik rejiminin mövcüdluğunu göstərir. Məhz bu rejim - demokratiya (xalq hakimiyyəti) dövlətin və cəmiyyətin səmərəli idarə olunmasını həyata keçirmək üçün real şərait yaradır. Onun özü isə dövlətin və cəmiyyətin bir-birinə qarşılıqlı nəzarət və idarə etməsinin prinsiplərinə əsaslanır. Buradan aydındır ki, ölkənin ictimai həyatında demokratiya nə dərəcədə dərin və ardıcıllıqla yerinə yetirilirsə, burada yeridilən daxili və xarici siyasətin optimallıq səviyyəsi də bir o qədər yüksək olur. Buna görə də aşağıdakı məsələlərin həlli optimallığın təmin edilməsi baxımından da zəruridir:

- xalqın demokratiyaya hazır olmadığını və ya onun mentalitetinin buna əngəl yaratdığını təbliğ etməklə, həm ölkə əhalisini, həm də demokratikləşmə

tələbində duran xarici dövlətləri, beynəlxalq təşkilatları buna inandırmaq, bir növ manipulyasiya etmək;

- parlamentdə qəbul edilən qanunların qeyri-optimal, ölkə şəraitinə yaramayan, ziddiyyətli və boşluqlara malik olması, qanunların əksəriyyətinin işləməməsi; qəbul edilən qanunlara qüvvəyə mindiyi gündən bir–iki ay sonra ciddi dəyişikliklərin edilməsi, qanunların məzmun və formasının bir sıra beynəlxalq təşkilatların tənqid və iradlarına məruz qalması demokratikləşməyə maneələr yaratmaqla yanaşı, həmin ölkənin əhalisində demokratiyaya inamın zəifləməsinə səbəb olur;

- qanunların icrasına birbaşa məsul olan idarəetmə strukturlarının, xüsusilə də hüquq – mühafizə orqanlarının, məhkəmələrin bəzən qanunları pozması və onlara biganəlik nümayiş etdirməsi, demokratiyanın həyata keçirilməsinə mane olan ən ciddi səbəblərdəndir (1, 228-232).

Siyasətin optimallığının digər mühüm amilini bütövlükdə milli mentalitetin səviyyəsi təşkil edir. Milli mentalitet dedikdə, hər bir xalqın və millətin həyat və düşüncə tərzi, tarixən formalaşmış adət və ənənələri, milli əxlaqı və psixoloji keyfiyyətləri, həyat və fəaliyyət orientirləri, hadisələri qiymətləndirmə meyarlarının məcmusu nəzərdə tutulur. Ölkədə normal siyasi münasibətlərin formalaşması, hakimiyyət probleminin konstitusion, legitim və milli mənafeyə söykənən demokratik yollarla həlli, milli mənafeyə xidmət edən siyasi və sosial-iqtisadi proqramların işlənib hazırlanması və gercəkləşdirilməsi üçün xalqın bütöv mentalitetinin yaradılması son dərəcədə önəmlidir. Əks halda, yəni milli mentalitetdə parçalanma və fərqlərin mövcudluğu dövlət siyasətinin optimallığı üçün ciddi maneə törədir. Sonuncu vəziyyət daha çox siyasi sabitliyin davamlı və möhkəm olmasına mənfi təsir göstərir. Haçalanmış mentalitet şəraitində tez–tez hakimiyyət böhranları yaranır, islahatlar aparmaq, inkişaf proqramları həyata keçirmək, qanunların qəbul edilməsi və icrası xeyli çətinləşir.

Siyasətin optimallığının üçüncü mühüm amili kimi xalqın siyasi mədəniyyətinin səviyyəsi çıxış edir. Siyasi mədəniyyətin yüksək səviyyədə olması milli mentalitetin vəhdətinə müsbət təsir edir, parçalanmalara mane olur. Ölkədə ictimai münasibətlərin süni yolla kəskinləşməsinə imkan vermir, siyasi həyatın liberallaşması üçün şərair yaradır. Siyasi mədəniyyətin yüksək səviyyədə olması radikallaşmanın qarşısını almaq və onu get-gedə zəiflətməklə, siyasi kapital toplamaq baxımından da çox yararlıdır. Çünki siyasi mədəniyyətin aşağı və radikallığı güclü olduğu bir cəmiyyətdə siyasi kapital daha çox kövrəkləşir. Bəzən siyasətçinin doğru sözü və hərəkəti düzgün başa düşülmür və düzgün gəbul olunmur, üstəlik o, cəmiyyət tərəfindən ciddi sınaqlara çəkilir ki, bu da siyasətçinin nüfuzuna ziyan verməklə, onun siyasi prestiji üçün gözlənilməz və ağır nəticələr verə bilər (1, 237).

Siyasətin optimallığını şərtləndirən ən mühüm amillərdən biri onu həyata keçirən əsas subyektin – dövlətin mahiyyəti və fəaliyyət istiqamətlərinin konkret məzmunu hesab edir. Bir siyasi institut kimi, dövlət onun funksiyaları

siyasət nöqteyi-nəzərindən səciyyələndirilir. Bu halda siyasətin həyata keçirilməsinin başlıca aləti qismində dövlət idarəçilik sistemi çıxış edir. Öz təbiətinə görə dövlət bütün sosial birliklərin maraqları naminə ümumi problemləri həll etməli və ümumi qayda-qanunu təmin etməli olur. Dövlət siyasəti cəmiyyətdə vətəndaş razılığının əldə olunmasında inteqrasiyaedici rolunu oynamalıdır (5, 62).

Bu mənada siyasət dedikdə, dövlətin və onun institutları tərəfindən, bütövlükdə cəmiyyətin və ayrı–ayrı şəxslərin ictimai həyatın müxtəlif sahələrinin idarə olunmasına yönələn fəaliyyət başa düşülür. Buna görə də siyasətin optimallığının təhlilinə hakimiyyət və dövlət fenomenləri xüsusi nəzərə alınmalıdır. Təsadüfi deyildir ki, sosiomərkəzi paradiqmada siyasət fenomeni insan həyatının sosial təşkilinin bu və ya digər forması, cəmiyyət həyatının müəyyən tərəfi kimi nəzərdən keçirilir (10, 42)

Sözün dar mənasında götürüldükdə də siyasət anlayışından ictimai həyatın müxtəlif sahələrində dövlətin fəaliyyətinin səciyyələndirilməsi və təsviri üçün istifadə olunur. Beləliklə, siyasət cəmiyyət üzərində dövlət idarəetməsinin mahiyyəti və sosail-siyasi təyinatını ifadə edən əsas fəaliyyət istiqamətləri kompleksidir (3, 7)

Məhz siyasət vasitəsilə dövlət cəmiyyət üzvlərinin maraqlarının və ümumi iradənin reallaşmasını təmin edir və insanların həyatının mühüm sahələrinin idarə olunmasını həyata keçirir.

Müasir dövrdə cəmiyyətin mövcudluğu reallıqları dövlət siyasətinin optimallığından birbaşa asılıdır və onunla ayrılmaz surətdə bağlıdır. Hazırda dövlətin yeritdiyi siyasət cəmiyyətdə keyfiyyət idarəetmə sahəsindəki siyasətin səmərəliliyi ilə müəyyən olunur. Əgər dövlət siyasəti ardıcıl olaraq müvəffəqiyyətlər qazanırsa, deməli o vətəndaşlara onu legitim edən vədlərə müvafiq olaraq firavan yaşayış şəraitini təmin edir. Aydındır ki, belə fəaliyyət resursların məhdudiyyəti şəraitində (həm kadr, həm də maddi baxımdan) olduqca çətindir. Ona görə də dövlət siyasəti bütövlükdə cəmiyyətin tələbatlarının ödənilməsi vəzifəsinin yerinə yetirərkən müəyyən çətinliklərlə üzləşir ki, bu da həmin siyasətin optimallıq dərəcəsinə mənfi təsir göstərir. Buna görə də fərdi sektorla və ictimaiyyətlə səmərəli qarşılıqlı faydalı əməkdaşlığı təşkil edə bilməsi üçün dövlət siyasəti sisteminin daim yeniləşməsini, daha doğrusu, yenidən strukturlaşdırılmasını tələb edir.

Qeyd etmək lazımdır ki, dövlət siyasətinin optimallığı amilləri problemi çoxplanlı və çoxtərəfli xarakter daşıyır. Onun öyrənilməsinə yanaşmalar da eyni deyildir və buna müvafiq olaraq sözügedən problemin həlli də müxtəlif variantlıdır. Səmərəliliyin ümumsistem amillərinin təhlili aspektində yanaşdıqda ümumdövlət ideya-siyasi və strateji amillərin rolu əsas götürülür. Bilavasitə predmet təhlilində isə hakimiyyətin və müvafiq yarımsistemlərin və səviyyələri tərəfindən idarəçiliyin məqsədləri, strategiyası və struktur formaları ilə bağlı olan amillər ön planda çıxış edir. Müxtəlif təşkilatların idarə olunmasının (korporativ səviyyə) səmərəliliyinin təhlilində isə əsas diqqət konkret idarəçi-

lik üsulları, metodları və vasitələrinin təsiri sahəsinə keçir.

Fikrimizcə, dövlət siyasətinin optimallığını şərtləndirən amilləri sistemləşdirməyə cəhd edərək, bu siyasəti müəyyənləşdirən aşağıdakı dörd qrup amilləri göstərmək olar:

- dövlətin baza dəyərləri, strateji məqsədləri, ictimai sistemin inkişaf modelləri, ümumi siyasi xətti;
- dövlət hakimiyyəti və idarəçiliyi sisteminin təşkili və onun vahid bir orqanizm kimi işləməsi, vahid siyasi və hüquqi məkan;
- dövlət aparatının vəziyyəti, onun prioritet formaları, idarəetmə fəaliyyətinin metodları və üslubu; peşəkarlıq, əhalinin hakimiyyətə etimadı və dövlətin idarə olunmasında iştirakı səviyyəsi;
- cəmiyyətin iqtisadi, siyasi, sosial sabitliyi (qeyri-sabitliyi).

Qeyd olunan amillərin ayrı-ayrılıqda nəzərdən keçirilməsi baxılan problem nöqteyi-nəzərindən maraq doğurur. Məlumdur ki, hər bir siyasi sistem özünün əsas dəyərlər kompleksinə malikdir. Onlar dövlətin ümumiləşdirilmiş məqsədləri olmaqla ümumdövlət maraqlarının və siyasi strategiyanın mənəvi əsasını təşkil edir. Bu dəyərlər məqsəd xarakterlidir və dövlət idarəçiliyi sisteminin ideologiyası və konsepsiyalarında reallaşırlar. Baza dəyərləri sistemınə məqsədlərin nail olunmasına dair cəmiyyət tərəfindən bəyənilən vasitələri ifadə edən instrumental dəyərlər də daxildir.

Baza dəyərlərinin müəyyənliyi və onların cəmiyyət tərəfindən davranış və fəaliyyətin başlıca tənzimləyiciləri kimi qəbul olunması – normativ-hüquqi mexanizmlər də daxil olmaqla hakimiyyət və idarəetmə institutlarının səmərəli işləməsinin zəruri şərtidir. Bunu yaxın keçmişin təcrübəsi də sübut edir. Məsələn, sovet dövləti və cəmiyyətinə müəyyən dövrədək əhalinin əksəriyyətinin maraqlarını əks etdirən və onun tərəfindən qəbul olunan ideya-siyasi və mənəvi dəyərlər xas idi. Onlar cəmiyyətin tarixin ən böhranlı məqamlarında (ölkənin sənayeləşməsi, II Dünya müharibəsi, keçmiş işğal altında olan rayon və şəhərlərin bərpası dövrü) özünün mövcudluğu uğrunda mübarizəsidə ictimai-siyasi quruluşun nisbi səmərəliliyini təmin edirdi. Lakin sonralar hakim partiya tərəfindən bəyan olunan sovet sosialist dəyərləri öz nüfuzunu və təsir gücünü itirdikcə sovet rejiminin mənəvi əsasları da dağılmağa başladı və bu da onun süqutunu əsas amillərdən biri oldu.

Keçmiş sovet respublikalarında, o cümlədən Azərbaycanda yaranan yeni müstəqil siyasi rejim ilk gündən sovet dəyərlərindən imtina edərək ümumbəşəri və Qərb üslublu liberal-demokratik dəyərlərə üz tutdu. Lakin bu dəyərlər sisteminin formalaşması son dərəcə çətin və mürəkkəb proses kimi çıxış edirdi. Bunun nəticəsi idi ki, Gürcüstan, Ukrayna, Qırğızıstan kimi ölkələrdə cəmiyyətin həm siyasi, həm də ideoloji və mənəvi oriyentasiyalar üzrə qütbləşməsi özünü göstərdi. Cəmiyyətin fundamental normalarını ifadə edən baza dövlət dəyərləri müvafiq konstitusiyalarda qanuni təsbitini tapsa da, həmin ölkələrdə bu dəyərlər hələlik ümumən qəbul olunmamış və insanların kütləvi ictimai davranışının real tənzimləyicisinə çevrilməmişdi. Fikrimizcə, belə

situasiya cəmiyyətin islahatı məqsədlərinin tam aydın olmaması, daha dəqiq desək, onların qeyri-müəyyən ifadə olunması ilə bağlıdır. Bütün bunlar isə, əlbəttə, bütövlükdə dövlət siyasəti sisteminə öz mənfi təsirini göstərir.

Bununla əlaqədar qeyd edək ki, dövlət siyasətinin baza dəyərlərinin formalaşması prosesi müstəqil Azərbaycan respublikasında da rəvan və asan getməmişdir. Burada ona mənfi təsir göstərən tarixi, milli, sosial və mədəni xarakterli çətinliklərə əlavə olaraq ölkəmizin zorla cəlb olunduğu Dağlıq Qarabağ müharibəsi və onun törətdiyi ağır nəticələr və ciddi maneələr yaratmışdır.

Dövlət siyasətinin optimallığı amillərindən biri hakimiyyət və idarəetmə sisteminin təşkili, onun vahid bir orqanizm kimi işləməsi çıxış edir. Bu amil müasir inkişaf etmiş dövlətlərin hər birində müəyyənedici rol oynayır. Milli dövlət quruculuğu formaları və siyasi rejimlərdən asılı olmayaraq, optimallıq, fikrimizcə, birincisi, dövlət idarəçiliyi sisteminin real bütövlüyü, buraya cəlb olunan bütün idarəçilik subyektlərinin "oyun" qaydalarının vahidliyi ilə, ikincisi, hüquqi sabitlik və kifayət qədər yüksək hüquqi mədəniyyətlə, nəhayət, dövlət hakimiyyətinin bütün səviyyələrində, həmçinin yerli özünüidarəetmə miqyasında yüksək fəaliyyət qabiliyyətliliyi ilə təmin edilir. Təbii ki, idarəçiliyin keçmiş sistemyaradıcı təşkilati əlaqələri və formaları dağılmış olan, lakin yeni sistemin təşəkkülü prosesinin hələlik başa çatmadığı dövlətdə o cümlədən də Azərbaycanda təhlil olunan optimallığın sözügedən amilinin potensialı uzun müddət tam reallaşmamış qalır. Bundan əlavə həmin amil bəzi hallarda hakimiyyət və idarəçiliyin böhran təhlükəsi yaradır kiŞ o da neqativ planda öz təzahürünü tapır. Ekspert-alimlər, siyasətçilər, inzibatçıların ümumi rəyi ondan ibarətdir ki, vahid dövlət hakimiyyəti və idarəetmə sistemində bütün səviyyəli orqanların hakimiyyət qollarının səmərəli qarşılıqlı əlaqələri və işləməsi dövlət siyasətinin optimallığı baxımından başlıca şərtdir. Bu sistemin vahidliyinin təmin edilməsində hakimiyyətin bölünməsi prinsipinin reallaşması mexanizminin səmərəli işləməsi olduqca əhəmiyyətlidir. Təcrübə göstərir ki, demokratik əsaslarda dövlət hakimiyyəti və idarəçiliyin tam, vahid bir sistemi yaradılmazsa və o işləməzsə, səmərəlilik bütövlükdə idarə edənlərin subyektiv keyfiyyətlərindən asılı olan dəyişən məfhum olaraq qalar.

Dövlət siyasətinin optimallığını şərtləndirən amillər kompleksində dövlət aparatının vəziyyəti, onun fəaliyyət keyfiyyəti, əhalinin hakimiyyətdəkilərə etimad səviyyəsi çox mühüm əhəmiyyət kəsb edir. Bu siyasətin optimallığı həm də bilavasitə yüksək peşəkarlığa, strateji innovasiyalı təfəkkürə malik olan, prioritet demokratik idarəetmə fəaliyyəti üslubunu prioritet kimi qəbul edən və dövlətin maraqlarını rəhbər tutan müasir bürokratiyanın (idarəçilər təbəqəsinin) olması ilə bağlıdır. Sonuncu məqam yalnız onda öz həqiqi təsirini göstərir ki, rasional bürokratiya dövlət siyasətinin amili kimi konstitusiya ilə müəyyən edilmiş dövlət hakimiyyəti orqanlarının və ictimai institutların nəzarəti altında olsun. Əks halda o özünün korporativ maraqlarının əsirinə beləliklə də və səmərəliliyin antifaktoruna çevrilər. Belə ki, korporativ maraqlara aludəçilik dövlət aparatının formalaşdırılmasında və onun fəaliyyətinin demok-

ratik xarakterinin, eləcə də, optimallığının təmin edilməsində ziddiyyətlər yaradır. Bir tərəfdən dövlət aparatının açıqlığı, onun tərkibinə dövlət qulluğu üçün peşəkar hazırlıqlı olan insanların daxil olmaq imkanı yaradır. Digər tərəfdən, idarəçiliklə məşğul olan elitanın qanuniləşmiş status üstünlüyünün reallaşdırılması şərti kimi çıxış edən korporativ qapalılıq meylləri idarə edənlər ilə əhalinin digər qrupları arasında mənafelər ziddiyyəti törədə bilir. Son illərin elmi ədəbiyyatında dövlət qulluqçularının real status üstünlükləri nəzəri cəhətdən "inzibati – siyasi elita" anlayışında təsbit edilir.

Müasir keçid dövründə Azərbaycanda dövlət idarəetmə aparatının formalaşmasında yeni siyasi sistemin əsas tələblərinə uyğun gələn keçmiş idarəçilik ənənələrinə münasibətdə varislik prinsipi qorunub saxlanılır. Təcrübə göstərir ki, bu da tamamilə qanunauyğundur, çünki sovet dövlət idarəçiliyi aparatının, onun kadrlarının işində müasir dövlət idarəçiliyi üçün faydalı ola bilən sisteminə xas olan bir sıra elementlər (bəzi inzibatçılıq metodları, təşkilati formalar, sosial fəallığın qeyri-maddi həvəsləndirilməsi üsulları və s.) mövcud olmuşdur.

Dövlət siyasətinin optimallığı, artıq qeyd olunduğu kimi, sırf texnoloji problem deyil, o daha çox sosial - tarixi kontekstə malikdir. Bu isə, o deməkdir ki, qeyri-rasional dövlət siyasəti insanların əksəriyyətini fəal sosial mexanizmlərə cəlb etmək bacarığına malik olmayan ictimai quruluşun nəticəsidir. Deməli siyasətin optimallığı baxımından ictimai quruluşun mahiyyətinin başa düşülməsi olduqca vacibdir. Əslində bu, ölkədə ictimai qüvvələrin məzmununu, yerləşməsini, onların maraqlarının nisbətini, sosial ziddiyyətlərin yaranması səbəblərini anlamaq imkanı verən və bütövlükdə cəmiyyətin və ayrı-ayrı ictimai-siyasi qüvvələrin qarşısında duran (onun mövcudluğu və davamlı, sabit inkişafı məqsədi ilə) vəzifələri düzgün başa düşmək deməkdir.

İctimai quruluşun real məzmunu iqtisadiyyat və siyasət, həmçinin mülkiyyət və hakimiyyətin tipləri kimi amillərin kombinasiyası ilə müəyyən olunur. Özü də söhbət bir-birilə birtərəfli determinasiya vəziyyətində olmayan amillərdən gedir. Onların konkret nisbəti isə öz növbəsində digər daha dərində yerləşən şərtlərlə müəyyən olunur. Həmin amillər kompleksi qarşılıqlı əlaqədə və təsirdə olmaqla, ilk növbədə ictimai quruluşun spesifik simasını, sosial birliklərin xarakterini və onların qarşılıqlı əlaqələri tiplərini müəyyən edir (9, 81).

Təhlil göstərir ki, dövlət siyasətinin optimallaşdırılmasında zəruri səbəblərdən biri kimi, bütövlükdə sosial gerçəklik məkanında iqtisadi, siyasi, sosial fəaliyyətə daha geniş miqyasda cəlb olunması çıxış edir. Bu sonuncu məsələ həm də buna görə diqqəti cəlb edir ki, o dövlət siyasətinin subyektiv amilinə, yəni hakimiyyət strukturlarında qəbul olunan qərarların həyata keçirilməsini təmin etməli olan insanlara, şəxsin heyətə yönəldir. Bu kontekstdə Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında dövlət qulluğu sisteminin islahatı xüsusiyyətləri maraq doğurur. İlk növbədə bu islahatlar obyektiv şəkildə hakimiyyət orqanlarının etibarlı, təşəbbüskar və peşəkarlıq baxımından hazırlıqlı, üzərinə qoyulan funksiyaları səmərəli yerinə

yetirməyə qadir olan mütəxəssislərlə təmin olunmasına yönəlmişdir.

XX əsrin ikinci yarısından başlayaraq dünya ictimai fikrində dünyada baş verən hər şeyi aqrar cəmiyyət – sənaye cəmiyyəti – informasiya cəmiyyəti (postsənaye cəmiyyəti) paradiqması çərçivəsində nəzərdən keçirir. Biz indi elə bir cəmiyyətdə yaşayırıq ki, burada informasiya bir dəyər kimi cəmiyyəti birləşdirən bazis əsaslarından biri kimi çıxış edir. Hazırda kim informasiyaya malikdirsə, o, dünyaya malikdir fikri aksiom statusu alır. Qeyd olunan məqam dövlət idarəetmə orqanlarında onun rasionallığı və optimallığını təmin etmək mqsədilə informasiyanın təşkili və istifadə olunmasının yaxşılaıdırılmasını ön plana çəkir. Bundan başqa, informasiya siyasi idarəçiliyin normativ sənədləri üçün əsas kimi çıxış edir. Buna görə də, belə informasiya axınlarının səmərəliliyinin artırılması yolları geniş miqyasda həll olunmaqdadır. Bununla yanaşı, informasiyalaşma müəyyən problemlər yaradır. Belə ki, bəzi informasiya növlərinin, məsələn, motivləşmə, kəmiyyət qiymətləndirilməsi xeyli dərəcədə çətinləşir. Sonra informasiya sistemi yalnız formal informasiya əlaqələrini nəzərə almaq qabiliyyətinə malikdir. Lakin o, hazırda böyük əhəmiyyət kəsb edən qeyri-formal təmasların xarakterini aça bilmir. Buna görə də, elmi ədəbiyyatda söylənilən aşağıdakı fikir doğru səslənir: informasiya sistemləri və informasiya texnologiyalarının dövlət siyasətinin məhsuldarlığının artırılmasına gətirib çıxarması şübhə doğurmur, lakin bunun üçün məsuliyyətli və peşəkar rəhbərlik vacibdir. İnformasiya texnologiyalarından istifadə variantlarının bütövlükdə təşkilati sistem prizmasından qiymətləndirilməsi də mühüm əhəmiyyət daşıyır (8).

Dövlət quruluşu sisteminin islahatı idarəçilik prosesində və, bütövlükdə, siyasətdə optimallıq məsuliyyət ilə sıx əlaqədədir, onlar qarşılıqlı şəkildə bir-birindən asılıdır. Başqa sözlə, məsuliyyət idarəçilik fəaliyyətinin optimallaşdırılmasının subyektiv amilini təşkil edir. Bu qarşılıqlı asılılığı nəzərə alaraq, qeyd etmək olar ki, məsuliyyət subyektin öz vəzifələrini səmərəli yerinə yetirmək və fəaliyyət məqsədlərinə müvafiq qəbul etdiyi ictimai dəyərlərə uyğun səmərəli, rasional şəkildə nail olmaq qabiliyyətidir.

Digər bir problem dövlət siyasətinin optimallaşdırılması mexanizminin müəyyən edilməsidir. Fikrimizcə, bu baxımdan optimallıq meyarları kimi dövlət strukturlarının müxtəlif səviyyədə iqtisadi, sosial, maliyyə, təşkilati və digər vəzifələri uğurla həyata keçirmək, qarşıya qoyulan məqsədlərə nail olmaq, əhalinin müxtəlif qruplarının iqtisadi və siyasi maraqlarını razılaşdırmaq və əlaqələndirmək qabiliyyəti çıxış edir. Bununla əlaqədar tədqiqatçılar hesab edir ki, bir federal dövlət kimi, Rusiyanın inkişaf modeli özünü doğruldur. Bu modelin əsasları aşağıdakından ibarətdir:

Keçid dövründə islahat aparılan cəmiyyətdə etibarlı idarəetmə vasitələrinə malik olan güclü mərkəzi hakimiyyət xüsusilə lazımdır. Bununla belə, nəzərə alınmalıdır ki, bu mərhələnin mövcud olması məhdudlaşmalıdır. Onun yerinə elə balanslaşmış mexanizmlər və model gəlməlidir ki, burada güclü federal mərkəz, özünün hakimiyyət səlahiyyətlərini, maliyyə resursları ilə

insanların həyat və fəaliyyəti ilə bağlı olan əsas məsələləri "mərkəzlə" güclü regionlarla qarşılıqlı əlaqədə həll etsin. Bu nöqteyi-nəzərdən həmin model çərçivəsində səlahiyyətlərin bölüşdürülməsi məsələsi yaranır. Bu baxımdan "mərkəzin" və regionların qarşılıqlı münasibətlərinin üç səviyyəsinin ayrılması təklif edilir:

• iqtisadi və sosial problemlər regionların səlahiyyətlərinə aiddir, burada birgə həll olunan problemlər dairəsi də ayrılır. Xüsusi dövlət əhəmiyyətli məsələlər (müdafiə, xarici siyasət və s.) federal "mərkəzin" səlahiyyətindədir;

• dünya idarəetmə nəzəriyyəsi kontekstində getdikcə daha tez-tez ümumi nəzarət olmaqla səlahiyyətlərin ötürülməsi meyli təzahür edir ki, bu da tamamilə düşünülmüş yanaşma olmaqla "mərkəzin" regional problemlərin yükündən azad edilməsi, bununla da əsas diqqətin strateji əhəmiyyətli problemlər üzərində cəmləşdirilməsi deməkdir;

• regionların uğurlu iqtisadi və sosial inkişafı – dövlət siyasətinin səmərəliliyi və optimallığının artırılmasının mərkəzi aspektidir. Məhz bu zəmində regional hakimiyyət strukturları inam, davamlılıq və zəruri dinamika əldə edə bilərlər. Bunlar isə dövlət siyasətinin optimallığının başlıca tərkib hissələrini təşkil edir (5, 131)

Sənaye tipli istehsalın mövcud olduğu iki yüz illik ictimai quruluşun təcrübəsi həyatın təşkilinə və təbii ki, dövlət siyasətinə texnokratik yanaşmanın təhlükəli və məhdud olduğunu göstərdi. Məhz bu yanaşmanın təsiri altında bizim sivilizasiyanı yetişdirən, dərin humanist xarakterə malik olan İntibah və Maariflənmə ideyaları bir kənara qoyulmuşdur. Burada insana adətən iki tərəfdən baxılırdı: istehsalçı və istehlakçı kimi. Ona münasibətdə yalnız iqtisadi inkişaf meyarı tətbiq olunurdu. Faktiki olaraq belə koordinatlar sistemində Teylorun dövründən başlayaraq istehsalın idarə olunması elmi də inkişaf edirdi.

Beləliklə, üçüncü minilliyin başlanğıcında yaranmış vəziyyət dövlət siyasəti fəlsəfəsi və metodologiyasının konkret şəkildə dəyişdirilməsini tələb edir. Tədqiqatçıların və mütəxəssislərin fikrincə, başlıca yerə insan qoyulmalı və dövlət siyasəti əsl humanist xarakter almalıdır. İnsanların bir-biri ilə, təbiətlə, öz keçmişi və gələcəyi ilə qarşılıqlı əlaqələrinin qeyri-ənənəvi formaları axtarılmalıdır. Bu isə dövlət siyasətinin humanistləşdirilməsini, həmin prosesdə fəlsəfi, sosioloji, psixoloji, hüquqi, pedaqoji biliklərin nəzərə alınmasını tələb edir.

Dövlət siyasətində mövcud və yeni tətbiq olunan texnologiyalar, əmək alətləri və vasitələri, istifadə olunan xammal və materiallar, məhsulun keyfiyyəti, həyat tərzi, məişət şəraiti və bir sıra digər məsələlər məhz insanın maraqları, onun özünü qoruması, insan nəslinin davam etdirilməsi mövqeyindən təhlil edilməlidir.

Nəhayət, müasir cəmiyyət sosial cəhətdən səmərəli olan, ictimai proseslərin arxasınca tələsən və təkcə iqtisadiyyata yönələn yox, kompleks

yanaşmaya və proqnostik baxışa malik olan dövlət siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində dərindən maraqlıdır. Burada söhbət obyektiv qanunauyğunluqlar barədə biliklərə əsaslanan, ictimai problemləri fəal və səmərəli həll edə bilən və cəmiyyətin mütərəqqi inkişafını təmin edən qabaqlayıcı, evristik başlanğıcın geniş yayılmasını nəzərdə tutan siyasətdən gedir. Əlbəttə, cəmiyyətdə hər şey əsasdır: istehsal, bölgü, mübadilə və istehlak, sosial sahə, elm, ədəbiyyat və incəsənət, hüquq və əxlaq, arxitektura və kommunikasiyalar, tarix və mənəviyyat, mədəniyyət, insanların sağlamlığı və fiziki inkişafı və s. Lakin bütün bunlar bütöv, dinamik, ahəngdar bir sistem yaradıldığı və hər şeyin insana "xidmət" etdiyi şəraitdə, insan üçün əsl əlverişli və rasional həyat tərzi yarada bilər.

Siyasətin optimallığı kontekstində dəyərlər sisteminin nəzərdən keçirilməsi də maraq doğurur. Hər bir siyasi sistemə özünəməxsus dəyərlər sistemi və iyerarxiyası xasdır. Dəyərlər sistemi həmin insanlar birliyinin siyasi birliyin ətraf mühitlə qarşılıqlı əlaqələrini, həmçinin onun üzvləri arasında qarşılıqlı münasibətləri əks etdirən kollektiv tarixi yaradıcılığın məhsuludur.

Konkret siyasi ittifaqın (dövlətin) dəyərlər sistemi onların sosial aləmdə mövcud olan bütün müxtəlifliyini (məsələn, mənəvi, estetik, elmi, həm də siyasi) tam əhatə etmir. Bu sistem dövlət quruluşunun konstitusion əsaslarında, dövlətin ideologiyasında, siyasi prinsipləri və məqsədlərində təsbit olunmuş, siyasi strategiyada, həmçinin idarə edən subyektin fəaliyyət prinsiplərində, konsepsiya və məqsədlərində reallaşan və siyasi ittifaqın mövcudluğu və işləməsi üçün daha əhəmiyyətli olan dəyərlərin məcmusunda formalaşır.

Müasir dövlətin baza dəyərlərini siyasi demokratiya, dövlət suverenliyi, onun ərazi bütövlüyü və təhlükəsizliyi, qanunçuluq, insanın siyasi və sosial hüquq və azadlıqları, istehsal vasitələri üzərində mülkiyyət müxtəlifliyinə əsaslanan azad əmək, mənəvi və siyasi həyatda plüralizm və s. təşkil edir. Hakim elitalar və siyasi liderlər tərəfindən ifadə edilən, tarixi təcrübədə sınaqdan keçmiş və hüquq vasitəsilə təsbit olunmuş baza dəyərləri cəmiyyət üzvlərinə və idarə edən subyektlərə münasibətdə qarşı ümuməhəmiyyətli, obyektiv xarakter və status kəsb edir. Təcrübənin göstərdiyi kimi, rəsmi bəyan olunmuş dəyərlər və idarə edənlərin real "oyun" qaydaları arasında məsafə, fərq nə qədər az olarsa, siyasətin optimallığı da bir o qədər real və yüksək olur.

## ƏDƏBİYYAT


1. Hacıyeva V.Siyasi orqanizm:elementlər, əlaqələr, proseslər. Bakı, 2008, 267 s.
2. Большая советская энциклопедия. Под ред. А.М. Прохорова. В 30-ти т. Т. XXX. 3-е изд. М.: Советская энциклопедия, 1978, 631 с.
3. Грачев М.Н., Ирхин В.В. Актуальные проблемы политической науки. М.: Экономическая демократия, 1996, с.7
4. Политический процесс: основные аспекты и способы анализа: Сб.уч. материалов / Под ред. Мелешиной Е.Ю. М.: изд.дом «ИНФРА», «Весь мир», 2001, с.
5. Политический процесс: основные аспекты и способы анализа: Сб.уч. материалов / Под ред. Мелешиной Е.Ю. М.: изд.дом «ИНФРА», «Весь мир», 2001, с.

6. Макаренко В.П. Аналитическая политическая философия. М.: Праксис, 2002, 416 с.
7. Соловьев А.И. Политология: Политическая теория, политические технологии: Учебник для студентов вузов. М.: Аспект Пресс, 2000,
8. Спиркин А.Г. Философия. Учебник. М.: Гардараки, 2000, 816с.
9. Степин В.С. Теоретическое знание. М.: Прогресс-Традиция, 2000, 744 с.
10. Философский энциклопедический словарь. М.: ИНФА, 1999, 576с.

## ОБУСЛАВЛИВАЮЩИЕ ФАКТОРЫ ОПТИМАЛЬНОСТИ ПОЛИТИКИ

**Х.С.ИБРАГИМОВА**

### РЕЗЮМЕ

В последние десятилетия повышенное внимание к проблеме оптимальности политики объясняется как практической, так и теоретической необходимостью. В случаях, когда речь идёт об оптимальности политики в конкретной ситуации возникает необходимость определения её критериев, обосновании и оценки реальной политики.

Будучи чрезвычайно сложным и динамичным процессом, оптимальность политики обуславливается многими факторами, которые в своём единстве оказывают комплексное воздействие на общественную жизнь. Более конкретно, оптимальность политики определяется такими внутренними факторами, как общественный строй, существующая власть, характер и содержание взаимоотношений между государством и его аппаратом, политический настрой населения и его интересы. Однако наряду с вышеперечисленными факторами, немаловажное влияние на оптимальность политики оказывают также и такие внешние факторы, как природные и экологические.

**Ключевые слова:** политика, эффективность и оптимальность политики, государство**,** власть, демократия, национальный менталитет

## FACTORS CAUSING THE OPTIMALITY OF POLICY

**Kh.S.IBRAHIMOVA**

### SUMMARY

The growing attention to the problem of optimality of the policy is both practically and theoretically urgent. The optimality of the policy in a specific situation necessitates definition of its criteria, bases and evaluation.

Being an extremely difficult and dynamical process, the policy optimality is caused by many factors which in the unity have complex influence on public life. More particularly, the optimality of the policy is defined by such internal factors, as the social order, the existing power, the character and the maintenance of mutual relations between the state and its device, a political spirit of the population and its interests. However, along with the factors set forth above, an important influence on the optimality of the policy renders such external factors as natural and ecological ones.

**Key words**: policy, efficiency and optimality of the state policy, authority, democracy, morality